**ADF-nin Bəyanatı**

2025-ci ilin avqust ayının 8-də ABŞ-da, Prezident D.Trampın təşəbbüsü ilə Azərbaycan Prezidenti İ.Əliyev və Ermənistan Baş naziri N.Paşinyan arasında imzalanmış müqavilə tarixi hadisədir.

Güney Azərbaycanın milli qüvvələri, demokratik təşkilatları bu prosesi səbirsizliklə gözləyirdi və imzalanmış müqaviləni Azərbaycanın sülhsevər siyasətinin gözəl bir nümunəsi olaraq qiymətləndirir.

Daglıq Qarabagın işgalı zamanı Güney Azərbaycanın hər bir insanı nə qədər hiddət keçirirdisə bu gün bir o qədər sevinc hissləri keçirir. Nəhayət, Azərbaycanın Naxçıvanla daha geniş kommunikasiyaları açılacaq, reqional və beynəlxalq ticarət əlaqələri genişlənəcək və bölgə əməkdaşlıq regionuna çevriləcək.

Azərbaycan dövlətinin müdrük və uzaqgörən siyasəti bütün dünyaya göstərdi ki, əbədi müharibə və əbədi ixtilaflar olmur. Bütün problemlər sonunda danışıqlar masasında həll olunur.

Güney Azərbaycan milli hərəkatı iştirakçıları və bütünlükdə güneyli soydaşlarımız bu uğura sevinir və Azərbaycan dövlətinin sülhsevər siyasətini dəstəkləyirlər.

Demokratik qüvvələr İran İslam Respublikasının “Mərg, mərg, mərg” şuarları ilə ifadə olunan beynəlxalq siyasətini kökündən yanlış hesab edir və ölkənin başına gələn bütün bədbəxtliklərin səbəbinin məhz bu oldugunu düşünür. İranın siyasi qüvvələri, siyasi xadimləri nümunə ola biləcək bu təcrübəni mənimsəməli və mütərəqqi addımlarla dölətin xarici siyasətində yeni baxışlar nümayiş etdirməlidirlər. Əməkdaşlıq və səmimi qonşuluq həmişə muharibə və düşmənçilikdən yaxşıdır.

Güney Azərbaycan ictimaiyyəti İran İslam Respublikası dövlətinin məntəqədə baş verən mütərəqqi, sülhsevər siyasətə qoşulmasını və onu dəstəkləməsini gözləyir.

**ADF-nin siyasi heyyəti**